+

# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 42

Bakı şəhəri "14" may 2014-cü il

**"Bakı şəhərinin uşaq əhalisinə göstərilən ambulator psixiatriya yardımının təkmilləşdirilməsi barədə"**

Bakı şəhərində ambulator psixiatriya yardımının təkmilləşdirilməsi və bu xidmətin uşaq əhalisinə yaxınlaşdırılması məqsədilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.4-cü bəndini rəhbər tutaraq

## ƏMR EDİRƏM:

1. Bakı şəhər Baş Səhiyyə İdarəsinin Uşaq Ruhi-Əsəb Dispanserinin ləğv edilməsi barədə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə müraciət edilsin.

2. Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi E.Əliyevaya tapşırılsın:

2.1. Uşaq Ruhi-Əsəb Dispanserinin həkim-psixiatr və orta tibb işçisi ştatları xidmət etdiyi ərazi və əhalinin sayına əsasən tibb müəssisələrinə verilərək psixiatriya kabinetləri təşkil edilsin və bu ştatlarda çalışan işçilər qanunvericiliyə uyğun olaraq köçürmə yolu ilə yeni yaradılan psixiatriya kabinetlərində işlə təmin edilsinlər;

2.2. həmin dispanserdə işləyən surdoloq və loqoped ştatları Bakı şəhər Baş Səhiyyə İdarəsinin Uşaq Nevroloji Xəstəxanasına verilsin və bu ştatlarda çalışan işçilər qanunvericiliyə uyğun olaraq köçürmə yolu ilə həmin xəstəxanada işlə təmin edilsinlər;

2.3. aparılan struktur dəyişiklikləri ilə əlaqədar olaraq psixiatriya kabinetləri təşkil olunan tibb müəssisələrinin ştat cədvəllərində və əsasnamələrində müvafiq dəyişikliklər edilsin;

2.4. bu əmrdən irəli gələn digər məsələlər həll edilsin.

3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzi tərəfindən uşaq psixi sağlamlıq sahəsində tibb müəssisələrinə təşkilatı-metodik rəhbərlik gücləndirilsin.

4. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, bu əmrin 2-ci və 3-cü bəndlərinə uyğun olaraq tibb müəssisələrinin maliyyə göstəricilərində müvafiq dəyişikliklər edilsin.

5. Əmrin icrasına nəzarət nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**